# "İçərişəhər" Qoruğunun layihəsi beynəlxalq mükafata layiq görülüb



**"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin (DTMQİ) Dünya İrsi Şəhərləri Təşkilatına təqdim etdiyi "Bakı Xan Sarayı Kompleksi" layihəsi "Jean-Paul-L'Allier İrs Mükafatı"nın qalibi olub.**

İdarədən bildirilib ki, İspaniya Krallığının Kordoba şəhərində təşkil olunan və Dünya İrsi Şəhərləri Təşkilatının üzvü olan 100-dən çox tarixi şəhər rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə keçirilən 17-ci Dünya Konqresinin açılışı zamanı təşkilatın prezidenti və Kvebek şəhərinin meri Bruno Marchand "İçərişəhər"in qalib şəhər seçildiyini rəsmi şəkildə elan edib.

Çoxlu namizəd sırasında son mərhələyə 12 finalçı (Kvebek, Krakov, Kotor, Mexiko, Vizbi və digər şəhərlər) çıxsa da, onların arasında "Bakı Xan Sarayı Kompleksi" layihəsi qalib seçilib. İdarənin təqdim etdiyi "İçərişəhərdə həyat keyfiyyətinin yaxşılaşdırılması: Bakı Xanlarının Parkı və Bakı Xan Sarayı Kompleksi" layihəsi təşkilatın müxtəlif üzv şəhərlərdən olan münsiflər heyəti tərəfindən mükafata layiq görülüb. İçərişəhərin rəsmi olaraq qalib elan edilməsindən sonra "İçərişəhər" DTMQİ tərəfindən konqres iştirakçıları üçün layihənin təqdimatı keçirilib.

Qeyd edək ki, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi 2016-cı ildən Dünya İrsi Şəhərləri Təşkilatının (OWHC) üzvüdür.

Azərbaycan.- 2024.- 5 oktyabr (№ 218).- S.13.